# TARVERDİ XANƏLİ OĞLU NİYAZOV – 50




Niyazov Tarverdi Xanəli oğlu 1970-ci ildə Qərbi Azərbaycanda dünyaya göz açmışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Neft Akademiyasının (indiki ADNSU) "Geoloji-kəşfiyyat" fakültəsinə daxil olmuş və 1996-cı ildə oranı müvəffəqiyyətlə bitirərək, "dağ mühəndisi-geofizik" ixtisasına yiyələnmişdir. Hələ tələbə ikən taleyini birdəfəlik neft geofizikası ilə bağlamağa qərar vermiş T.Niyazov 1987-ci ildə "Azərgeofizika" trestində (indiki "Mədəngeoizika" İB) mühəndis kimi fəaliyyətə başlamışdır. Elmi tədqiqatlara olan maraq və həvəsi onu 1991-ci ildə Geofizika Elmi-Tədqiqat İnstitutuna gətirmişdir. Bu vaxtdan 2012-ci ilə qədər o, Geofizika ETİ-də müxtəlif vəzifələrdə işləmişdir. 1991 - 1997-ci illərdə "Quyu geofiziki tədqiqatları" təcrübi-metodik dəstəsində geofizik, 1998 - 2005-ci illərdə "Seysmotomoqrafiya" laboratoriyasında mühəndis, 2005 - 2010-cu illərdə "Elmi-tədqiqat təcrübə sahəsi və geofiziki avadanlıqların hazırlanması" şöbəsində rəis, 2010 - 2012-ci illərdə "Seysmik kəşfiyyat" laboratoriyasında böyük elmi işçi vəzifələrində çalışmışdır.

2012-ci ildən etibarən T.Niyazov "Neftqazelmitədqiqatlayihə" İnstitutunda "Seysmik kəşfiyyat" laboratoriyasında böyük elmi işçi vəzifəsində fəaliyyətini davam etdirmişdir. Tutduğu vəzifədən asılı olmayaraq, o, həmişə əməksevərliyi, yüksək təşkilatçılıq qabiliyyəti və bacarığı ilə ətrafındakılara nümunə olmuşdur. Bilik və bacarığı, böyük təşkilatçılıq qabiliyyəti nəzərə alınaraq, T.Niyazov 2013-cü ildə "Seysmik kəşfiyyat" laboratoriyasının müdiri təyin edilmişdir.

T.Niyazov geoloji-geofiziki məlumatların təhlili nəticəsində Azərbaycanın neftli-qazlı rayonlarında Mezokaynozoy çöküntülərinin struktur-tektonik quruluşunun dəqiqləşdirilməsi istiqamətində genişşaxəli tədqiqatlar aparır. O, seysmik və quyu məlumatları əsasında Mezokaynozoy çöküntülərinin struktur quruluşunun dəqiqləşdirilməsi, qeyri-antiklinal tələlərin ayrılması və onların neft-qazlılığının proqnozlaşdırılması, gələcək axtarış-kəşfiyyat və dəqiqləşdirici geofiziki işlərin istiqamətləndirilməsi üçün neft-qaz perspektivli sahələrin ayrılması üzrə tədqiqatların bilavasitə iştirakçısı və rəhbəri kimi fəaliyyət göstərir. Bu tədqiqatlar sırasında onun xüsusilə seysmik məlumatlar əsasında Təbaşir çöküntülərinin daxili geoloji quruluşunun öyrənilməsi və neftlilik-qazlılıq perspektivlərinin qiymətləndirilməsi istiqamətində apardığı tədqiqatlar və aldığı nəticələr diqqəti cəlb edir. Apardığı genişşaxəli tədqiqatların nəticələrini ümumiləşdirərək, T.Niyazov 2017-ci ildə "Seysmik kəşfiyyat məlumatları əsasında Yevlax-Ağcabədi çökəkliyi strukturlarında Təbaşir çöküntülərinin daxili geoloji quruluşunun tədqiqi" mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmiş və yer elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşdür.

O, müxtəlif elmi-praktiki seminarlarda və Beynəlxalq konfranslarda dəfələrlə maraqdoğuran məruzələrlə çıxış etmişdir. Onun apardığı tədqiqatlar və aldığı nəticələr 20-dən artıq elmi hesabatda, 30-a yaxın dərc olunmuş məqalə və tezislərdə öz əksini tapmışdır. Azərbaycan Milli Geofizika Komitəsi İctimai Birliyinin və Azərbaycan Neftçi-Geoloqlar Cəmiyyətinin üzvüdür.

Əlamətdar yubiley münasibətilə T.Niyazovu səmimi qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, həyatda və elmi-istehsalat fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq!

***SOCAR Geofizika və Geologiya İdarəsi***
***Azərbaycan Milli Geofizika Komitəsi İB***
***"Azərbaycanda Geofizika Yenilikləri" jurnalının redaksiya heyəti***